## Oqtay Ərgünəş – 70

# “Böyük günah”dan “Qum saatı”na qədər



Hafiz RÜSTƏM

Yazıçı-publisist Oqtay Ərgünəş xeyli sayda sanballı bədii, publisist kitabların müəllifidir. Onun mənə bağışladığı kitabları gözdən keçirdikcə, indiki imzalar bolluğu içərisində qəribə bir yazı dəsti-xətti ilə qarşılaşdım və sevindim. Ona görə ki, elə özünün dediyi bir problem onun kitablarına aid deyil. Bu, onun “çoxsaylı kitablar var, oxucular yoxdur” kəlamıdır. Doğrudan da, indiki bərli-bəzəkli kitablar bolluğunda sayı çox, sanbalı yox bəzi kitabların içərisində oxunulası, nə isə əxz ediləsi əsərlər az olduğundan, belə kitabların oxucuları da qıtlaşıb. Bu mənada, belə kitablar çox, oxucuları isə yoxdur - deyir, Oqtay müəllim. Bu da son onilliklərin bir faciəsidir, yazar və oxucu faciəsi! Müasir insanı düşündürən problem məsələləri tam dolğunluğu ilə yaza bilməmək və oxucuların maraq dairələrinə uyğun oxuya biləcəyi kitabların olmaması faciəsi...

Oqtay Ərgünəş həcmcə kiçik, lakin mənaca böyük tutumlu esselər, mənsur şeirlər, hekayə və povestlər, satira və yumor janrlı yazıları ilə ədəbi mühitdə yetərincə tanınır. Bu əsərlərin hər biri demək olar ki, gənc nəslin qan yaddaşının cilalanmasına, onların vətənpərvərlik tərbiyəsinə yönəlmişdir. Mən bu yazımda Oqtay Ərgünəşin kitablarında dərc etdiyi ibrətamiz kəlamlardan söhbət açmaq istəyirəm. Hər şeydən əvvəl, Oqtay Əliyevin “Böyük günah” kitabında “Hər kəlamın öz hikməti var” adlı satirik deyimlər bölməsinin üstündə dayanmaq istərdim. Niyə? Ona görə ki. Oxucu üçün yazarın kimliyi nəinki təkcə bir kitabla tanışlıqdan başlayır, hətta bir ədəbi məhsul nümunəsindən də yazarın hansı səviyyədə olduğunu müəyyənləşdirə bilərsən. Amma Oqtay Ərgünəş elə xoşbəxt yazıçıdır ki, bir kəlamından da onun ədəbi düşüncəsinin hansı qüdrətdə olduğunu müəyyənləşdirmək olur.

Oqtay Ərgünəş yaradıcılığında bu cür az sözlə - bir cümlə ilə böyük mətləbləri qandırmaq məharəti haradan qaynaqlandığını düşünsək, sualın cavabını da onun kitablarını diqqətlə izləmək əsasında tapa bilərik. Belə ki, onun “Təzadlı dünya”, “Boş qalan papaqlar...”, “Qum saatı” kitablarına nəzər saldıqda orada “hər kəlamın öz hikməti var” bölümü olan fərdi yaradıcılıq nümunələri ilə də qarşılaşırıq. Yazıçı bu kitablarda da yaradıcılıq ənənəsini qoruyub-saxlayıb. Bu isə onu göstərir ki, Oqtay Ərgünəş özü elə bir müdrik el kişisidir - el ağsaqqalıdır. Elə onun özünün bir kəlamında dediyi fikirlər bu anda öz həqiqi yerini alır: “Həyatını güdaza verən, qocalıb saqqalı ağarmışlara deyil, müdrik, xeyirxah, sözü bütöv kişilərə ağsaqqal deyin!”

Bu mənada, yazıçının dili də, nitqi də aforizmlərlə zəngin olub, bir müdrik ziyalının insanlıq fəlsəfəsi, həyat haqqında dərin müşahidələrinin məhsulu kimi özünü göstərir. “Vətən və millət eşqilə qovrulan insanlarda özünə inam daha güclüdür”, “Milli-mənəvi, əxlaqi dəyərlərini itirən xalq həmişə məğlub olar”. “Yaxşı adam, dəyərli insan cəmiyyət üçün böyük sərvətdir”. “Görsən ki, bir gün göydən başımıza daş yağır, ellər, bilin ki, öz günahımızdır”. “İnsan daha çox ya dilinin, ya da qarnının ucbatından ziyan çəkir”. “Sağlam ruha sahib olmaq gənclik eşqi ilə döyünən qəlbə malik olmaqdır”. “Göy ağlamayınca, yer gülməz”. “Qələm tutan əl dilənməz”. “Uşağı ərköyün böyütmək onu atmağa bərabərdir”. Halallıq - insanlıqdır, həyatın gözəlliyidir”, “Ən böyük xoşbəxtlik təmiz qəlbə sahib olmaqdır”, “Kişinin şərəfi bütöv sözündə, mərdliyindədir”. “Çalışın, məhz dünyanın əşrəfi insana xas olan gözəl, mübarək insanı simanızı, milli-mənəvi, əxlaqi dəyərlərinizi itirməyin. Çünki, hər şeydən öncə, məhz əsl insan olmaq gərəkdir!..” “Qum saatı” kitabı ilə bağlı qeydlərimi diqqətə çatdırarkən onu da vurğulamalıyam ki, bu kitabdakı deyimlər, aforizmlər ilk baxışda çox sadədi. Məsələn, “yurd yeri, ocaq daşı” və yaxud “halallıq - insanlıqdı, həyatın gözəlliyidir”, “şəxsiyyəti nurlandıran insanın gözəl qəlbidir”, “tamah insanı haqq yolundan sapındırar”, “korazehin müəllim nadan yetişdirər” və s. Bu nümunələri ona görə diqqətə çatdırıram ki, bəlkə də bizim hər birimiz ayrı-ayrılıqda bu sözləri, bu fikirləri primitiv bir formada dilə gətirmişik. Lakin Oqtay Ərgünəş həmin o hamımızın verdiyi o sözləri bir növü cilalayıb yerli-yerində anlaşılan, qəbul olunan aforizmlərə çevirib.

Ayrı-ayrı əsərlərdən gətirilən bu kəlamların hər biri özlüyündə çox böyük həyati mətləbləri ifadə edən dərin mənaları özündə daşıyır. Bu isə həm də o deməkdir ki, Azərbaycan xalqı müdrik xalqdır, Oqtay müəllim də həmin müdrik xalqın müdrik nümayəndəsidir ki, bu cür gözəl, rəvan təbə malik duyğu və düşüncələrin sahibidir. Bir yazıçı kimi də öz nəsrində bu müdrikliyi əks etdirir, oxucularına da zəngin mənəvi bilgilər aşılayır, həyat üçün əhəmiyyət kəsb edən məsələlərdən hali edir. Oqtay Ərgünəşin “Qum saatı” (Bakı, “Ərgünəş”, 2014) və Amerikanın Çarleston nəşriyyatında çapdan çıxmış “Hourglass” (ABŞ-2015 seçilmiş əsərlər) adlı kitabı isə valideynlərinin xatirəsinə ithaf olunmuşdur. Yeni esselər və hekayələrinin daxil edildiyi bu kitabda müəllif: “Açılmamış bir butayam, Atam-Anam, bir də Vətənim meyarıdır söz səltənətimin” adlı bölmədə də Ata və Anasının dilindən eşitdiyi kəlamların işığında müdrik kəlamlarını təqdim edir, yeri gəlmişkən qeyd etmək istəyirəm ki, bu üslubda yazılmış əsər müəllifin yeni uğuru kimi qiymətləndirilməlidir.

Atam deyərdi: - Anam, bir də Vətənim dünyada ən ülvi və müqəddəs varlığımdır. Harada oldumsa, doğma xalqımdan, Azərbaycanımızdan gözəlini, ucasını görmədim.

Anam deyərdi: - Ata-Ana öz övladına gözəl taxt yarada bilər, amma gözəl bəxt verə bilməz

Hər gördüyünüzü qəlbinizə deməyin. Solmuş güllərə qərib gözlə baxmayın.

Atam deyərdi: - Çörək verən ol həmişə, çörək kəsən olma.

Zəhmət - keçdiyin yolun məhək daşıdır.



Bax beləcə, yazıçı ata və anasının dilindən eşitdiklərini ağsaqqal-ağbirçək öyüd-nəsihəti şəklində öz oxucularına çatdırır. Bununla insanlara, xüsusilə gənclərə də elə bir həyat dərsi vermiş olur. Çünki yaşanmış həyat yolunun təcrübəsini əks etdirən bilikləri gənc və gələcək nəslə çatdırmaq özü bir həyat dərsidir. Elə buradan qaynaqlanır ki, Oqtay müəllimin digər yaradıcılıq örnəklərində də həyatdan gələn real səhnələr öz əksini tapır və oxucularını da bu səhnələrdən əxlaqi - didaktik nəticələr çıxarmağa sövq edir. Məhz yazarın da ən böyük mənəvi missiyası oxucusuna tərbiyəvi hisslər aşılamaqdırsa, bunun da öhdəsindən Oqtay Ərgünəş layiqincə gəlməyi bacarır.

Bu il Oqtay Ərgünəşin yetmiş yaşı tamam olur. Keçdiyi əlli illik yaradıcılıq yoluna nəzər salanda Oqtay müəllim həm oxucusunun, həm də qələm dostlarının qarşısında alnı açıq, üzü ağdır.